The Interview Times.

Buraxılış No.7 Oktyabr, 2022 Pulsuz

SPECIAL EDITION



CLASS OF 2017



***Aydan Habibli***
*Executive Assistant to the Vice-rector for Academic Affairs,*
*ADA University*

Mənim arzum həmişə xaricdə təhsil almaq idi, mən o zaman bizim üçün "qeyri-ənənəvi" sayılan təhsil almaqdan aldığın hissləri hiss etmək istəyirdim. Amma ailəm o zaman xaricə getməyimin əleyhinə idi. ADA bakalavr dərəcəsi təklif etməyə başladığını biləndə mənim xoşbəxtliyimi və sevincimi təsəvvür edin. Burada təhsilimə başlayanda başa düşdüm ki, olmaq istədiyim yer məhz ADA Universitetidir. Buna görə bakalavr pilləsini bitirdikdən sonra, ailəm mənim xaricə getməyimə razı olsada, bu dəfə ADA-da qalmağa özüm qərar verdim və magistr təhsilimi burada davam etdirdim. ADA-da yaşadığım tələbə həyatını təsvir etmək mümkün deyil! Bütün konsertlər, tələbə klubları, fəaliyyətlər və şənliklər tələbə həyatını çox rəngarəng edir və mən əminəm ki heç bir başqa təhsil müəssəsində belə imkanlar mövcud deyil. Artıq 9-cu ildir ki, mən bu Universitetdəyəm, amma indi artıq bir işçi kimi və bundan daha çox məmnun ola bilməzdim.



***Shakir Mammadyarov***
*Head of Reporting Division,*
*Kapital Bank OJSC*

Orta məktəbdə oxuyarkən dövrün tələblərinə uyğun modern təhsil sisteminə malik ali məktəbdə təhsil almaq ən böyük arzum idi. O zaman sərbəst düşüncəyə əsaslanan, bilik və bacarıqların vəhdətdə inkişaf etdirildiyi təhsil sistemlərini xarici universitetlərdə araşdırırdım. Həmin müddətdə ADA Universitetinin bakalavr təhsili yeni fəaliyyətə başlamışdı və mən seçimimi bu istiqamətdə etdim, yüksəl balla həmin tədris ocağına daxil oldum.

Həyatım dəyişdi. ADA Universitetitində ədalət prinsipinə və sağlam rəqabətə əsaslanan tədris prosesi, professor-müəllimlərlə tələbələr arasındakı səmimi münasibət, həyatını öz bacarığına və potensialına uyğun qurmaq qabiliyyətinin inkişaf etdirilməsi fərqli yanaşma idi. Tələbəlik dövründə həyatımda taleyüklü anlar az olmayıb. Xatirələrim çoxdur. ADA-da təhsil aldığım üçün, orada formalaşdığım üçün xoşbəxtəm. Məhz ADA Universitetinin təşəbbüsü ilə Miçiqan Dövlət Universitetində bir semestr təhsil almaq imkanı qazandım və bu da həyatımın müsbət istiqamətdə dəyişməsində böyük rol oynadı. Fikrimcə, insanın bilik və bacarıqlarının formalaşması potensialı genetik səviyyədə ötürülsə də, əlverişli mühit onları daha da inkişaf etdirir. ADA mənə yeni dostlar qazandırdı, yüksək səviyyəli təhsil verdi, beynəlxalq əmək bazarında rəqabətədavamlılıq imkanı yaratdı, özümə güvəni formalaşdırdı. Hər zaman haqqımda formalaşan ilkin təəssüratdan daha yüksək səviyyəli informasiya ötürmək iqtidarında olmaq bacarığı formalaşdırdı. ADA mənim həyatımın ana xəttini müəyyənləşdirdi, davamlı inkişaf üçün stimul qazandırdı və bugünkü “mən”i sanki bir heykəltəraş kimi yenidən yaratdı.



***Tural Gurbanov***
*Financial Analyst,*
*RBC Capital Markets, Toronto, Canada*

Tələbəlik illərimə ADA Universiteti ilə başladığım üçün özümü şanslı hesab edirəm. Bu gün məni mən edən dəyərləri qazanmağımda bakalavr illərinin rolu böyük olmuşdur. Universitetdə keçirilən tədbirlər, dərslər hər gün dərsə həvəslə gəlməyimin əsas səbəbləri idilər. Bizim universitetin tələbələrinin digərlərindən əsas fərqi onda idi ki biz dərs saatlarından əlavə çox vaxt keçirirdik universitetdə. Mənim ən sevdiyim günlər imtahan həftələri “study room”- da qrup yoldaşlarımla dərs təkrar etməklərimiz idi. Cheryl xanımın ADA-da işlədiyi illərdə “Anti Procrastination Night” keçirilmişdi bir dəfə, o vaxt bir neçə qrup yoldaşımla kitabxanada dərs oxumuşduq. O gündən etibarən gecələr oxumaq vərdişi məndə formalaşmışdı. O vaxtlar “deadline”-lar çox görünürdü. Çatdırmalı idik, ona görə də məcbur belə əziyyətlərə öyrəşməli olduq. Həmin “Anti Procrastination Night” gecə frizbi də oynadıq kollektiv şəkildə. O vaxta qayıda bilsəydim yəqin ki daha çox könüllü fəaliyyəti göstərərdim və daha çox tədbirlərdə iştirak edərdim.



**_Turaj Mammadli_**
_Data and Reporting Administrator,_
_ADA University_

ADA Universiteti tələbələri, məzunları, müəllim, professor və işçi heyəti üçün xüsusidir və əzizdir deyə düşünürəm. Mənim üçün də bu belədir. 5 il tələbəsi və 2 ilə yaxındır isə işçisi olduğum müddətdə ADA-nın digər təhsil müəssisələrindən və ümumilikdə müxtəlif qurumlardan fərqini görməmək mümkün deyil. Artıq 10 il olacaq ki, mənim bu təhsil müəssisəsinə qəbul olmuşam. ADA-nın ilk günlərində, bizim Nizamidə yerləşən kampusda kiçik amma özünəməxsus kitabxana var idi. "Thesaurus Dictionary" alıb akademik sözləri öyrənməyi planladığım kitab hələ də şkafın ən görünən hissəsindədi (Still learning!). Univeristeti bitirərkən verilən medal, aldığımız diplom, ADA-nın fərqli tədbir, konsert və eventlərindən qalan biletlər, karyera həftəsi, "Ted Talk"-lar, volunteering və başqa tədbirlərdə verilən badgelər, üstə üstə yığılmış və çap olunmuş Marketing və Accounting chapterları, notlarla və stickerlarla dolu statistics notebookları, ispan dili testləri, və s. həmçinin bu illərdən qalıb və çox dəyərlidirlər. ADA yox başqa bir təhsil müəssisəsində oxumuş olsaydım indi düşündüklərimi düşünməz və gördüyüm hər işdə, şəxsi və ya professional, bu qədər motivasiyalı və məqsədyönlü olmazdım. Daha çox gəncin özlərinə, ailəsinə, ölkəsinə və ümumilikdə dünyaya töhfə verməyi ümidi ilə. Bütün məzunlara, tələbələrə və şagirdlərə uğurlar.



**_El Presidente_**

ADA Universitetində tələbə olarkən "ADA Chronicle" adlı qəzet fəaliyyət göstərirdi. Bizim üçün qəzetin ən maraqlı bölməsi müsahibə hissəsi idi. Yeni nömrələr çıxanda həmişə müsahibə götürülən şəxslərin şəxsi və həyat təcrübələrini oxumağa həvəs göstərirdik. Lakin qəzetin mövcudluğu bir neçə ildən çox davam edə bilmədi, pandemiya zamanı fəaliyyətini dayandırdı. Qəzetə olan həvəsimizi nəzərə alaraq, öz qəzetimizi yaratmaq qərarına gəldik, ancaq sırf müsahibədən ibarət, hansı ki ən çox bəyəndiyimiz. Bugün isə artıq bu qəzet ideya yox, reallıqdır və hazırda onu oxuyursunuz.



_İdeya müəllifi: El Presidente_
_Layihə icraçısı: Cavid Şahməmmədli_
_Dizayner: Nathan Kamanga_
_Redaktor: Fidan Namazova_
_Copywriter: Fəridə Eyvazova_
_Vergi məsləhətçisi: Suğra Əsgərova_
_PR komandası: Alejandra Garcia Duran_
_Mahirə Ağalarzadə_






# SAT MƏSƏLƏSİNİ STAR-LA HƏLL ET!

*Port Baku filialı - Üzeyir Hacıbəyov 57*
*(Port Baku Residence ilə üzbəüz)*
*+994 50 201 46 67*
*+994 12 526 24 36/46*

*Statistika filialı - Məhəmməd Naxçıvani 1*
*(Statistika dairəsi, KFC-nin 2-ci mərtəbəsi)*
*+994 50 201 78 44*

*office@star.edu.az*
*www.star.edu.az*

Tələbələrin karyera qurmaq üçün əsl mübarizəsi orta məktəbi bitirdikdən sonra başlayır. Komanda olaraq, qərarlı və çox çalışan tələbələrimizin qəbul olduqları universitetləri uğurla bitirməsini təcrübə etmişik. Lakin bunun üçün ilk addım düzgün universitet seçimi etməkdir. Bu mərhələdə isə tələbənin SAT nəticəsi çox önəmli rol oynayır.

SAT-Scholastic Aptitude Test xaricdə, xüsusilə də Türkiyə və ABŞ universitetlərində bakalavr səviyyəsinə qəbul olmaq istəyən tələbələr üçün imtahandır. Test abituriyentlərin dil və riyazi düşünmə bacarıqlarını qiymətləndirməyə kömək edir. Riyazi SAT “Heart of Algebra”, “Problem






Solving and Data Analysis”, “Passport to Advanced Math” olmaqla 3 hissədən ibarətdir. Hal-hazırda SAT tərkibində “No-calculator” əsaslı testlər tərtib edilir. 2023-cü ildən etibarən isə tələbələr yeni SAT sistemi olan Rəqəmsal SAT - “Digital SAT” ilə tanış olacaqlar. Bu sistemin ən böyük üstünlüyü isə nəticələrin 2-3 həftəyə deyil, 2-3 gün ərzində tələbələrə bildirilməsidir.

İstər yerli, istərsə də xarici universitetlərə müraciət ərəfəsində, xüsusilə də SAT imtahanlarında “STAR Colleges” komandası sizinlədir.